*© "Metafizika" Journal* *AcademyGate Publishing*
*Vol 7, issue 1, serial 25, 2024. pp.91-111* *p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UOT:** 572.
**KBT:** 74.262.88
**DOI:** 10.33864/2617-751X.2024.v7.i1.91-111
**MJ №** 201

# Fəlsəfi antropologiyanın mahiyyəti: Maks Şelerin fəlsəfi antropologiyanın məktəb kimi formalaşmasında rolu

**Asim Aşurov**[*]
**Zaur Rəşidov**[**]

**Abstrakt.** "Fəlsəfi antropologiya", ümumilikdə ümumdünya elm və müasir fəlsəfi fikir tarixinin xüsusi və son dərəcə əhatəli bir bölməsidir. Fəlsəfi antropologiya Qərb fəlsəfi və ictimai fikrinin önəmli bir sahəsidir. Tarixi köklərini antik yunan fəlsəfəsindən götürən, fəlsəfə tarixinin sonrakı dövrlərində də mövcud olan, alman klassik fəlsəfəsində yeni məna alan, XX əsrin əvvəllərindən başlayaraq fəlsəfə tarixində xüsusi bir cərəyana çevrilən fəlsəfi antropologiya həm də, ümumilikdə, insanın yeni fəlsəfəsidir. XX əsr Qərbi Avropa, əsasən də, almandilli fəlsəfədə insanın təbiəti və mövcudluğu haqqında müxtəlif bilik sistemlərinin naliyyətlərini də özündə ehtiva edən fəlsəfi təlimdir. Daha geniş mənada isə, fəlsəfi antropologiya insanı diqqət mərkəzində saxlayan, birnaşa onu öyrənməyi hədəfləyən fəlsəfi fikirlər, anlayışlar və təlimlərin məcmusudan ibarət olan elmi sistemdir. Maks Şelerin fəlsəfi təliminin nəticəsində 1920-ci illərin sonlarında meydana çıxan və düşüncə tarixində yeni bir istiqamət kimi qəbul edilən, fəlsəfi antropologiya qeyri-klassik fəlsəfənin bir qolu kimi inkişaf etmişdir.

**Açar sözlər:** fəlsəfi antropologiya, insan, heyvan, varlıq, Maks Şeler, gaist, Feyerbax

## 1.Giriş

İnsan varlığının sirrini açmaq fəlsəfənin mərkəzində dayanan dərin və sonsuz bir axtarışdır. İnsan varlığının mürəkkəb təbiəti, seçimləri, əxlaqi tərəfləri daim fəlsəfənin mühüm mövzusu olmuşdur.

[*] Bakı Dövlət Universitetinin "Fəlsəfə tarixi" üzrə magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459
[**] fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi; Bakı, Azərbaycan
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856
**Məqaləyə istinad:** Aşurov, A., & Rəşidov, Z. [2024] Fəlsəfi antropologiyanın mahiyyəti: Maks Şelerin fəlsəfi antropologiyanın məktəb kimi formalaşmasında rolu. *"Metafizika" jurnalı, 7(1),* səh.91-111.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.91-111

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 18.11.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 11.12.2023*
*Çapa qəbul edilmişdir: 29.01.2024*

Paskalın “özümüzü dərk etmək insanın böyüklüyünün özüdür” ifadəsində insan varlığının və təbiətinin araşdırılmasının önəmi ortaya qoyulur. *“İnsan o qədər zəif və kiçikdir ki, bir damla su onu öldürə bilər. Lakin o, onu öldürəndən daha nəcibdir, çünki öldüyünü bilir, kainatın ondan güclü olduğunu bilir. Kainat bütün əzəmətinə baxmayaraq, o, öz əzəmətindən xəbərsizdir. Ona görə də insan öz elmi ilə, hətta kiçik bir bilgisi ilə kainatdan üstün olaraq qalır”* [Landmann, 1974, səh.24].

Bu sözlər fəlsəfi antropologiyanın mahiyyətini ortaya qoyur. Fəlsəfənin bu sahəsi insan varlığının, şəxsiyyətinin və universumdakı yerini tədqiq etməyə cəsarət edən bir sahədir. Fəlsəfi antropologiya əsrlər boyu bəşəriyyəti maraqlandıran böyük sual üzərində düşünməyə çağırır: Bizi insan olaraq nə müəyyənləşdirir? İnsan fəlsəfəsi də adlandırılan fəlsəfi antropologiya fəlsəfə tarixi boyu filosofların insan haqqında düşüncələrini özündə cəmləşdirən bir disiplindir. Fəlsəfənin bu sahəsi insan olmağın nə demək olduğunun tədqiqidir. Başqa sözlə desək, insan nədir? sualının sistemli fəlsəfi tədqiqidir [Trajtelova, 2016, səh. 2]. Sözün etimologiyasına diqqət etsək, biz bu sahə haqqında müəyyən dərəcədə düşüncəyə malik ola bilərik. Yunan sözləri olan “antropos (insan)” və “loqos (elm)” sözlərinin birləşməsindən ibarət olan antropologiya insan haqqında elm deməkdir. Belə ki, fəlsəfi antropologiyanı da sadə təsvir etsək, onu insan üzərinə fəlsəfi nəzəriyyə kimi təqdim edə bilərik.

Başlanğıcda fəlsəfi antropologiya konseptinin anlaşılmasındakı fərqləri qeyd etmək lazımdır. Bu sahə iki cəhətdən nəzərdən keçirilməlidir:

1. Fəlsəfi antropologiya- fəlsəfə tarixində fəlsəfi təfəkkürün tərkib hissəsi kimi
2. Fəlsəfi antropologiya- X X əsrin müstəqil fəlsəfi məktəbi kimi [Trajtelova, 2016, səh.2].

Birinci halda, biz fəlsəfi antropologiyanı nəzərdən keçirərkən fəlsəfi fikir tarixindəki bir çox filosofların insanla bağlı düşüncələrini daxil etməliyik. Fəlsəfə tarixində insan nədir? sualına cavab axtaran bir çox konsepsiyalar olmuşdur. Bu konsepsiyalar fəlsəfi antropologiyanın məktəb kimi formalaşmasında mühüm rol oynamış və onun tarixi kökləri sayılırlar. İkinci halda isə, fəlsəfi antropologiya X X əsr fəlsəfəsində Maks Şelerin “İnsanın kosmosdakı yeri” adlı kiçik əsəri ilə xüsusi tədqiqat sahəsinə çevrilir.

Fəlsəfi antropologiyanı tədqiq edən Joachim Fişer yazır ki, antropologiya sahəsi insan üzərinə sualları, baxışları toplamaq və sistemləşdirməklə maraqlanan ilkin olaraq Bernard Qrothuysen, sonralar Mixael Landman və hal-hazırda Kristian Ties kimi müəlliflər tərəfindən yaradılmışdır. Digər tərəfdən paralel olaraq insan konsepsiyasına xarakterik yanaşma ilə çıxış edən paradiqma meydana çıxdı və bu yanaşma Maks Şeler, Helmut Plezner, Arnold Gelen, Rothaker və Portmanın uğurları idi. Birinci halda biz fəlsəfi

antropologiyanı fəlsəfə daxilindəki digər sahələr olan metafizika, epistemologiya, etika və digərləri ilə müqayisə edə bilərik. Ancaq ikinci halda fəlsəfi antropologiyanı bir paradiqma kimi XX əsrin fəlsəfi cərəyanları olan fenomenologiya, hermenevtika, eksiztensial fəlsəfə və digərləri ilə müqayisə edə bilərik [Fischer, 2009, səh.154]. XX əsrdə fəlsəfə tarixində yeni düşüncə istiqaməti olan fəlsəfi antropologiya, insanın hər hansı bir konkret xüsusiyyətini postulat kimi qəbul etməyə deyil, insanın ümumilikdə bioloji və sosial varlıq kimi tam və müfəssəl doktrinasını yaradaraq inkişaf etdirilməsinə yönəldi. Bu yeni fəlsəfi məktəbin yaranması ilə bağlı Landman yazır ki, 1920-ci illərdə "antropoloji renesans" baş verdi; bütün fəlsəfi elmlər sanki antropologiyaya yaxınlaşırdı [Landmann, 1974, səh.57]. Joachim Fişer fəlsəfi antropologiyanın sərhədlərini dəqiq şəkildə müəyyən edir. O, fəlsəfi antropologiyanı əks etdirən təlimləri daha çox Maks Şeler, Helmut Plezner və Arnold Gelenin fəlsəfəsində görür. O, bu məktəbi eksiztensial və hermenevtik fenomenologiyadan, idealizmdən, elmi naturalizmdən və digər fəlsəfi məktəblərdən fərqləndirir. Fişerin əsas nöqtəsi budur ki, insanları nəyin fərqli etdiyini başa düşmək üçün fəlsəfi antropologiya onların ətrafındakı insan olmayan həyat formalarını (heyvanlar və bitkiləri) öyrənməklə başlayır. Əslində, fəlsəfi antropologiya fəlsəfi biologiya ilə sıx bağlıdır, həyat formalarının, o cümlədən, insanların ətraf mühitlə necə qarşılıqlı əlaqədə olduğunu və onların formalaşmasını nəzərə alaraq bəşəriyyətin bütöv şəkildə araşdırılmasına çalışır. Digər fəlsəfi antropologiya tədqiqatçıları isə, Plezner və Gelenin fəlsəfi təlimlərinin fərqliliklərini qəbul edərək fəlsəfi antropologiyanın öncüllərini tarixin daha erkən dövrlərində görürlər. Bu tədqiqatçılar, xüsusilə də, alman idealist və postidealist fəlsəfəsinin bu cərəyanın formalaşmasında önəmli rolunu qəbul edirlər. Biz də hər iki fikri nəzərə alaraq, oxuculara fəlsəfi antropologiyanın mahiyyətini daha dəqiq anlatmaq üçün həm onun tarixdəki köklərini, həm də XX əsrdə bu məktəbin banisi olan Maks Şelerin fəlsəfi təliminə diqqət yetirmək istəyirik. *"Fəlsəfi antropologiyanı fəlsəfə tarixinin tarixinin tərkib hissəsi yəni "fəlsəfənin alt sahəsi kimi"* və bir paradiqma kimi fərqləndirilməsinə dair müxtəlif diqqətəlayiq məqalələr yazılsa da, hələ də qənaətbəxş cavab tapılmamışdır" [Fischer, 2009, səh.154].

Biz məqaləmizə insanla bağlı dərin suallarla cavab axtaran filosoflara retrospektiv nəzər salmaqla başlayacağıq. Qədim dövrlərdən bu günə qədər onların müxtəlif perspektivləri fəlsəfi antropologiyanın təkamülünə öz töhfəsini vermişdir. Bundan sonra biz fəlsəfi antropologiyanı insan təbiətinin sirlərini açmağa həsr olunmuş digər fənlərdən fərqləndirən məqamlara da diqqətli nəzər salacağıq. Bu tədqiqat işinin içərisində fəlsəfi antropologiya və digər fəlsəfi məktəblər arasında dinamik dialoqu göstərən cəhətləri də nəzərdən keçiriləcək. Bu qarşılıqlı əlaqə, fəlsəfi antropologiyanın digər

fəlsəfi cərəyanlarla oxşarlıqları və fərqliliklərini ortaya qoyur, onun daha geniş fəlsəfi mənzərə daxilində özünəməxsus yeri haqqında məlumat verir. Araşdırmamızın mərkəzində Maks Şelerin fəlsəfi antropologiyasının oynadığı əsas rol dayanır. Sonrakı bölmələrdə biz Şelerin təsirinin spesifik tərəflərini göstərəcək, onun fəlsəfi töhfələrini və onların bu sahədə önəmini təhlil edəcəyik.

**2.Fəlsəfi antropologiya fəsəfə tarixinin tərkib hissəsi kimi**

Çoxəsrlik yaşı olan fəlsəfə tarixinin bütün inkişaf mərhələlərində, filosoflar tərəfindən insan nədir? sualına cavab axtarılmış və bu problemə fərqli cavablar verilmişdir. Ümumilikdə, Qərb fəlsəfəsinin beşiyi olan Qədim Yunanıstanda, insan mərkəzli fəlsəfənin doğuluşunda Homerin (e.ə. IX-e.ə.VIII əsrlər) "İliada" və "Odisseya" epik poemalarının misilsiz rolu olmuşdur. Bu ölməz əsərlərdəki bədii, mifoloji və dini elementlərin vəhdətdə təqdim olunduğu sosial-antropomorfik dünyagörüşündə insan problemi xüsusi olaraq işıqlandırılmışdır. İlk sistemli fəlsəfi təlimlərin meydana çıxdığı Antik Yunan fəlsəfəsinin ilkin dövrlərində insan sualı daha çox antroposentrizm nöqteyi-nəzərindən həll edilmişdir. Bundan əlavə, qədim yunan məbədi olan Apollonda "özünü tanı" fəlsəfi ifadəsi insanın mahiyyətinin öyrənilməsinin qədimdən müdrikliyi sevən insanların əsas məqsədi olduğunu göstərir. İndiki dövrdə ümumiyyətlə qəbul olunur ki, Sokratla birgə bir qrup professional müəllimlər olan "Sofist" hərəkatının nümayəndələri fəlsəfədə humanist dönüşə töhfə vermişlər [Nerczuk, 2016, səh.44]. Antik yunan fəlsəfəsində insanla bağlı ilk fikir sofist məktəbinin görkəmli nümayəndəsi Pratoqora aiddir: "İnsan bütün şeylərin ölçüsüdür: mövcud olan şeylərin mövcudluğunun, mövcud olmayan şeylərin mövcud olmamasının." Pratoqor bu tezisi hər şeyin nisbi olmasını sübut etmək üçün irəli sürmüşdür [Mehdiyev, 2010, səh. 107]. Filosofun bu ifadəsi həqiqətin subyektivliyini və onun fərdin perspektivindən asılılığını göstərir. Fəlsəfə tarixində Sokrat o qədər önəmli fiqurdur ki, bir çox tədqiqatçılar fəlsəfə tarixini Sokrataqədərki dövr və sokratdan sonrakı dövr olaraq iki yerə ayırırlar. Fəlsəfə tarixində Sokrataqədərki dövr naturfəlsəfə dövrü adlanır. Sokrat fəlsəfəni naturfəlsəfədən antropologiyaya gətirdi. Siseronun sözləri ilə desək, o, fəlsəfəni "göylərdən yerlərə endirdi" [Nerczuk, 2016, səh.44]. Sokratdan sonra onun davamçıları sayılan Platon və Aristotel də öz fəlsəfi təlimlərində insanla bağlı fundamental ideyalarla çıxış etdilər.

Platonun antropologiyası və ya insan təbiəti haqqında anlayışı çox vaxt dualizmlə əlaqələndirilir. Platon inanırdı ki, insanlar iki fərqli hissədən ibarətdir: fiziki bədən və ölməz ruh və ya intellekt. Bu dualistik baxış ən məşhur şəkildə "Fedon" əsərində təqdim olunur, burada o, bədənin müvəqqəti və qeyri-kamil olduğunu, ruhun isə əbədi olduğunu və formalar haqqında biliyə malik olduğunu iddia edir.

Aristotel insanı hilomorfizm adlandırılan nəzəriyyə çərçivəsində iki substansiyanın- bədən və ruhun birliyi kimi təyin etdi. İnsan, onu hər hansı digər canlı varlıqdan üstün edən özünəməxsus xüsusiyyəti olan bir heyvan növüdür: rasional ruhdur.

Orta əsrlərdə fəlsəfə ilahiyyatın daxilində oz fəaliyyətini davam etdirirdi. Elə bu səbəbdən də insana, onun yaradılışına, əxlaq və seçimlərinə dini nöqteyi nəzərdən yanaşılırdı. Xristian doktrinasında Tanrı insanı yaradılışın altıncı günündə yaradır. Digər canlılar kimi, insan da təbii qanunlara və nizama tabedir. Amma digərlərindən fərqli olaraq, insana yer üzündə və onun digər sakinləri üzərində hakimiyyət verilmişdir. Orta əsr ilahiyyatçıları insanı ilahi varlıq və digər yaradılışlar arasında yerləşdirməyə çalışırdılar. Bu dövrdə insan anlayışı ən yaxşı şəkildə Akvinalı Fomanın fəlsəfi təlimində izah olunur. Foma insanı mənəvi təbiətinə görə Tanrıya bənzəyən bir varlıq hesab edir.

> *“Sonra Tanrı dedi: “Gəlin, öz surətimizə uyğun insan yaradaq; dənizdəki balıqlar və quşlar üzərində, havanın, mal-qaranın, yer üzündəki bütün vəhşi heyvanların üzərində və yer üzündə sürünən hər bir canlının üzərində hökmranlıq etsin.” Beləliklə, Tanrı bəşəriyyəti öz surətində yaratdı. Tanrı öz surətində kişi və qadını yaratdı”* [Schoot, 2020, səh.36].

İntibah dövründə humanist hərəkatın meydana çıxması ilə insanın mahiyyəti xristian düşüncəsindən kənarda yenidən düşünülməyə başlanıldı. Bu dövrün önəmli filosoflarından olan Covanni Mirandola “İnsanın ləyaqəti haqqında nitq” adlı əsərində qeyd edir ki, renessans insanı ənənəvi konsepsiyalardakı insandan fərqlənir, çünki o, dünyanı anlama bacarığını dərk edir. Bundan əlavə, müasir fəlsəfənin banisi sayılan Rene Dekart insan mahiyyəti problemi ilə ciddi şəkildə məşğul olmuşdur. Metafizika və fəlsəfi antropologiyaya dair müasir diskussiyalar Dekartın insan konsepsiyasından əhəmiyyətli dərəcədə təsirlənir. İndiki vaxtda bir çox fəlsəfi mübahisələr “ağıl və bədən” problemi ilə bağlıdır. İntibah dövründə Mişel Monten və Blez Paskalın fəlsəfi təlimlərində antropologiya problemi işıqlanır. Bu dövrlərdən sonra ilk dəfə olaraq klassik Alman fəlsəfəsində antropologiya probleminə yeni baxış gəldi. İstər antik dövrdə, istər orta əsrlərdə, istərsə də renessans dövründə insana mahiyyət kənardan yüklənirdi. İnsan əxlaq, din, teologiya çərçivəsində öyrənilirdi. İlk dəfə olaraq fəlsəfə tarixində insanın dərketməsinə insanın özündən çıxış edərək tərif verən Kant olub. Kantaqədərki fəlsəfə tarixində məsələn, Dekartın anadangəlmə ideyalarına görə Tanrı ideyası insandadır. Bu fikir isə insanın meyarını aça bilmir. Subyektiv idealistlər isə, maddi şeyləri inkar edərək hər şeyi insanın persepsiyasi kimi qəbul edirlər. “Sentensiya, persepsiya, apersepsiya” - bu paradiqmaya əsaslanan bir çox filosoflar təfəkkürün rolunu ortaya qoya bilmirdilər. Fəlsəfədə ilk dəfə bu problemi ortaya qoyan Kant olub. Kanta

görə, bütün aləmdəki varlıqlar fenomenlərdir. İnsan düşüncəsi mövcud olanların ancaq bildiyi qədərini dərk edə bilirsə, onların mahiyyəti nədir? Kanta görə bunun mahiyyəti noumendir. Kantın bu konsepsiyasına görə, predmetlər həm dərk olunan, həm də dərk olunmazdır. Kanta görə insanın düşüncə sistemi insanın özünə məxsus olan bir şeydir, kənardan deyil, hər şey insanın özündəndir.

Ümumiyyətlə, Kantın antropologiya sahəsinə töhfələri çox olmuşdur. O, universitetdə antropologiyadan mühazirələr oxumuş və bu mühazirələr onun "Antropology from pragmatic point of view" kitabında toplanmışdır. Kantın antropologiya üzrə mühazirələri iştirak, maraq və əlçatanlıq baxımından ən məşhur dərsləri idi. Kant həm fəlsəfi antropologiya, həm də sosial və mədəni antropologiya sahələrinin yaranmasında rolu olan filosofdur. Ancaq, Kantın bu sahələrə təsiri fərqli trayektoriyalarda olmuşdur [Khan, 2021, səh. 2]. Kant "Antropology from pragmatic point of view" adlı kitabında insan təbiəti, onun fiziki və zehni xüsusiyyətləri, biolojik vəziyyəti, davranışları və emosional vəziyyəti kimi mövzulara toxunur.

Bundan əlavə, Kant ən məşhur əsəri sayılan "Xalis zəkanın tənqidi" əsərində zəkanın maraq obyektlərini aşağıdakı məşhur suallarında cəmləşdirir:

1. Mən nəyi biləbilərəm?
2. Mən nə etməliyəm?
3. Mən nəyə ümid edə bilərəm?

Bu 3 suala Kant öz məntiqində dördüncünü əlavə edir: İnsan nədir?

Kanta görə bu suallardan birinciyə metafizika, ikinciyə əxlaq, üçüncüyə teologiya və dördüncüyə antropologiya cavab verir. Ancaq, fundamental olaraq bunların hamısı antropologiya olaraq qəbul edilə bilər. Çünki ilk dövrlərdən bu yana üçü sonuncuda birləşir. Kantın insan təbiəti, davranışı, dəyərləri ilə bağlı suallara dair fikirləri Kantı fəlsəfi antropologiyanın inkişafında nüfuzlu filosofa çevirir. Əgər Kant bu məsələlərə sadəcə təmas etməklə qalmayıb, eyni zamanda onların tədqiqi üçün fəlsəfəsində yer ayırmış olsaydı, şübhəsiz, fəlsəfi antropologiyanın qurucusu sayılardı [Mengüşoğlu, 1949, səh.191]. Ancaq, Kant insanı müstəqil bir sahənin tədqiqat obyekti etməmişdir.

Klassik Alman fəlsəfəsində antropologiya sahəsinə təsir etmiş filosoflardan ən önəmlisi Lüdviq Feyerbaxdır. Bir çox tədqiqatçılar Feyerbaxı antik dövr, orta əsrlər və intibah filosofları ilə birgə fəlsəfi antropologiya tarixinin mühüm bir parçası hesab edirlər. "Feyerbax insanın fəlsəfənin mərkəzi halqası olabiləcəyi ilə bağlı həmçinin ağlı, iradəni və emosiyaları əhatə edən həqiqi gerçəkliklə bağlı fəlsəfi təlim yaratdı. O, fəlsəfi antropologiyanın teologiyanı əvəz edəcəyi fikri ilə çıxış etdi və həqiqətən də, müasir fəlsəfi antropologiya sekulyarlaşmış teologiya kimi qəbul edilə bilər" [11].

Michael Landmana görə, “Feyerbax ilk müasir filosofdur ki, fəlsəfəsinə Hegel kimi universal zəka ilə deyil, Dekart və Kant kimi insan zəkasıyla deyil, bütünlüklə insanla başlamaq istəyir” [Landmann, 1974, səh.54]. Feyerbax qeyd edir ki, “obyektin özü özlüyündə mövcudluğu nədirsə, mənim üçün də odur. Mənim ağlım, hisslərim, iradəm - bu aspektdən baxanda mən öz mahiyyətimi həssas, təsirli, rasional və iradi varlıq kimi təsdiq edirəm” [Baltazar & Gleidimar, 2020, səh. 78]. Feyerbaxın fəlsəfəsi insanı vahid, emosional və həssas fərdlər kimi dərk etməkdə dərin mənaya malikdir. O, bütöv insandan başlamaqla vurğulayır ki, bizim subyektiv keyfiyyətlərimiz, o cümlədən, ağlımız, hisslərimiz və iradəmiz dünya haqqında təsəvvürümüzün formalaşmasında həlledici rol oynayır. Bu insan mərkəzli yanaşma, Feyerbaxın fəlsəfi antropologiyasının əsasını təşkil edir və burada mücərrəd fəlsəfi təlimlərdən uzaqlaşma baş verir, o, subyektivliyimizin insan olaraq mahiyyətimizi necə müəyyən etdiyini araşdırır. Feyerbax fəlsəfi antropologiyasında insanı 2 kontekstdə nəzərdən keçirir: “İlk olaraq, filosofa görə insan, hər şeydən əvvəl təbiətin əvəzedilməz məhsuludur, insan təbiətin qanunlarına öz şüurundan asılı olmayaraq hörmət edir və itaət edir” [Nguyen Minh Tri, 2022, səh.584]. Bu perspektiv, insanların təbii dünya ilə qarşılıqlı əlaqəsini vurğulayır və varlığımızın maddi aspektlərə əsaslandığını göstərir. Feyerbaxın fəlsəfəsi təbiət aləminin daha geniş kontekstində yerimizi tanımağın vacibliyini vurğulayır. Digər tərəfdən Feyerbaxa görə, “insan təbiəti konkret olaraq individualdır. İnsanın özü insan təbiətini özündə ehtiva etmir. İnsan təbiəti yalnız icmada, cəmiyyətdə,insan birliyi arasında mövcuddur” [Nguyen Minh Tri, 2022, səh. 584]. Filosof insan təbiətinin fərdiliyini qeyd edərək bildirir ki, insan təbiətinin həqiqi mahiyyəti ancaq sosial kontekstdən çıxış etdikdə tamamilə anlaşıla bilər.

Feyerbaxın fəlsəfi antropologiyasının mərkəzi movzularından biri də onun din haqqında düşüncələridir. Teologiya ilə fəlsəfə arasındakı seçimini fəlsəfədən yana edən filosof fəlsəfəni də insan üçün düşünmüş və Tanrı üçün fəlsəfəni rədd etmişdir. O, “Essence of Christianity” əsərindən ilahiyyatı psixolojik bir patalogiya hesab etmişdir. Feyerbaxa görə, insan dinin həm başlanğıcı, həm mərkəzi, həm də sonudur. Din isə. insanın özünə itaət etməsidir. Feyerbaxın əsas fikirlərindən biri odur ki, Tanrı insan arzularının antropomorfik ideyasıdır. İnsanlar məna axtararkən öz surətlərində Tanrını yaratdılar. “Yeni fəlsəfə adlandırılan Feyerbaxın fəlsəfəsində teologiya antropologiyada əriyəcək, din özünə fəlsəfədə sığınacaq tapmayacaq” [Akdemir, 2003, səh.343].

## 3.Fəlsəfi antropologiya və digər bəşəri elmlər arasındakı fərqlər

İnsan nədir? sualına cavab axtaran bir çox elmlər mövcuddur. Bunlara nümunə olaraq sosiologiya, psixologiya, antropologiya və digərlərini göstərmək olar. Bu elm sahələrinin insanla bağlı xüsusi elmi görüşləri

mövcud olmağına baxmayaraq fəlsəfi antropologiyanı bu elm sahələrindən fərqləndirmək labüddür.

İnsan təcrübəsinin mürəkkəbliklərini tədqiq edən 2 fərqli tədqiqat sahəsi olan fəlsəfi antropologiya və antropologiya, adları bənzəsə də, metodlarına, məqsədlərinə, araşdırdıqları suallara və tarixi inkişaf xüsusiyyətlərinə görə kəskin şəkildə fərqlənirlər. Fəlsəfi antropologiya və antropologiyanı fərqləndirərkən ilk öncə antropologiya elminin alt sahələrini qeyd etmək lazımdır. Antroplogiya 4 alt sahəsinə sahibdir. Bunlar sosial antropologiya, mədəni antropologiya, arxeologiya və linqvistik antropologiyadir. "19-cu əsrin sonlarında antropologiya və bir çox başqa elmlər fəlsəfənin tərkibindən çıxdılar. Antropologiya sosial elmlərin insanın bioloji və təkamül tarixini (fiziki antropologiya), həmçinin Homo sapiensi digər heyvan növlərindən fərqləndirən mədəniyyət və cəmiyyəti (mədəni antropologiya) öyrənən bir qolu kimi meydana çıxdı" [Olafson, 2019]. Sosial antropologiya və fəlsəfi antropologiyanın arasındakı fərq ondadır ki, fəlsəfi antropologiya təməllərini təbiət elmlərindən deyil, fəlsəfənin özündən götürür. Fəlsəfi antropologiya insanı daha çox insan olmaq baxımından incələyir və əsas sual olan insan nədir? sualına cavab axtarır. Fəlsəfi antropologiya fəlsəfənin tərkib hissəsidirsə, antropologiya xüsusi bir elm sahəsidir. Antropologiya fəlsəfi antropologiyadan fərqli olaraq etnik qrupları, mədəniyyətləri tədqiq etmək meylindədir. "Antropologiyanın bir alt sahəsi olan fiziki antropologiya insan etnik qruplarının fiziki xarakteristikalarını öyrənir, arxeoloji tədqiqatlara və ərazi çalışmalarına əsaslanır. Digər tərəfdən mədəni antropologiya, insan mədəniyyətlərini öyrənir və bu sahənin əsas problemləri etnosentrizm, reliativizm və mədəni monizmdir. Ancaq, fəlsəfi antropologiyanın əsas mövzusu bunlar olmayıb insanın mahiyyəti, onun nəliyidi" [Cheung, 2000, səh.12]. Fəlsəfi antropologiya və antropologiyanı fərqləndirərkən onların tarixi inkişaf yollarına da diqqət yetirmək lazımdır. Əvvəldə də qeyd etdiyimiz kimi, fəlsəfi antropologiyanın tarixi inkişaf köklərini qədim yunan fəlsəfəsində - Sokrat, Platon, Aristotel və digərlərinin fəlsəfi təlimlərində tapmaq olar. Antropologiya isə öz tarixini tarixin atası sayılan Herodotun əsərlərindən götürür. Herodot ilk dəfə insan topluluqları, onların davranış tərzləri və yaşayışları barədə məlumat vermişdir.

"Fəlsəfi antropologiya geştalt psixologiyası və psixoanalizdən təsirləndiyinə baxmayaraq, psixologiya və fəlsəfi antropologiya arasında da fərqlər vardır. Psixologiya fərdin zehni fəaliyyətləri ilə bağlı tədqiqatlar aparır. Fəlsəfi antropologiya isə insanı sosioloji tədqiqatların obyekti və ya psixoloji araşdırmaların mövzusu kimi nəzərdən keçirmir. Fəlsəfi antropologiyada insan obyekt, subyekt və şüurun hər hansı bir növü kimi məhdudlaşdırılmamalıdır" [Cheung, 2000, səh.11-12].

Fəlsəfi antropologiya və sosiologiya insan təbiətini və varlığını tədqiq edən oxşarlıqları və fərqlilikləri olan sahələrdir. “Fəlsəfi antropologiya və sosiologiya insana sosial heyvan kimi bir müddəanı bölüşsələr də, fəlsəfi antropologiya pozitivist bir elm sahəsi sayılmır. Fəlsəfi antropologiyada insan sosial varlıq kimi qəbul edilsə də, o, hissləri, sevgisi və spiritual hərəkətləri olan heyvandır” [Cheung, 2000, səh.11].

**4.Fəlsəfi antropologiya və digər fəlsəfi cərəyanlar arasında dialoq**

Fəlsəfə tarixində insan varlığının mahiyyətini düşünən zəngin fəlsəfi təlimlər mövcuddur. Bu mürəkkəb mənzərənin içərisində həyat fəlsəfəsi, ekzistensializm, fenomenologiya və fəlsəfi antropologiya fərqli, lakin bir-biri ilə əlaqəli düşüncə telləri kimi dayanır. Bu fəlsəfi cərəyanlar insanın dünyadakı yerini, şüurun təbiətini və insan təcrübəsində məna və məqsəd axtarışını araşdıran insan olmağın nə demək olduğunun dərin incəliklərini tədqiq edirlər. Fəlsəfi antropologiya insan mahiyyətinə və onun dünyadakı yeri məsələsinə diqqət yetirdiyi halda, eksiztensializm, fenomenologiya, həyat fəlsəfəsi kimi digər fəlsəfi cərəyanlar da insana fərqli tərəflərdən yanaşırdı. Bu fəlsəfi məktəblər bir birilə dialoqlar aparır, insanın vəziyyəti və dövrün mürəkkəb vəziyyəti ilə bağlı diskussiyalar aparırdılar. I dünya müharibəsindən sonra Almaniyada dominant fəlsəfi cərəyan olan fəlsəfi antropologiyanın XX əsrin önəmli fəlsəfi məktəb halına gəlməsində fenomenologiya və həyat fəlsəfəsi önəmli rol oynamışdır [Landmann, 1982, səh.20].

“Bir çox fəlsəfə tarixçiləri düşünürlər ki, XX əsr fəlsəfəsi Hüsserlsiz anlaşıla bilməz. Çünki Husserl öz fəlsəfə anlayışı ilə XX əsrin əvvəllərində çox önəmli funksiyanı yerinə yetirmişdir” [Eren, 2008, səh. 106]. Husserl yazırdı ki, “fəlsəfə mövcud fəlsəfələrdən və ya onların tənqidlərindən deyil, fenomenlərdən hərəkət etməlidir. Hüsserlin bu cümləsi onun fəlsəfəsinin düstrurudur. Onun “fenomenlərə dönməli” fikri artıq fəlsəfəyə yeni bir sahə - fenomen sahəsi bəxş etmişdir” [Mengüşoğlu, 1945, səh.49].

“Fenomenologiya elmi nəzəriyyələrdə itmiş modern insan həyatını özünə qaytarmaq istəyirdi” [Landmann, 1982, səh.20]. Husserl kartezian düşüncəsini inkar edirdi. “Husserlə görə mexanist fəlsəfə obyektlərin keyfiyyət və xarakterinə çox diqqət yetirmir, hər şeyi sadələşdirməyə, onların hamısını eyni kimi qavramağa, çoxluğu birliyə endirməyə çalışır.” [Landmann, 1982, səh.20]. Bunun əksinə olaraq, fenomenologiya təcrübələrimizin bir çox fərqli aspektlərini anlamağa maraqlıdır. O, təcrübələrimizin bütün kiçik və unikal tərəflərini qiymətləndirməyə çalışır. Husserl pozitiv elmləri də tənqid edərək yazırdı ki, texniki elmlərin mənfi cəhəti odur ki, onlar insanı həyat aləmindən uzaqlaşdırır. Ancaq gerçək elmin çıxış nöqtəsi insanın “həyat aləmi” (life world) olmalıdır. Husserlə görə positivism fəlsəfə üçün çıxılmaz nöqtədir. Pozitivizm elmə reduktiv baxışın

irəliləməsinin nəticəsi olaraq fəlsəfənin qabağını kəsdi. Fenomenologiya isə dünyanın elmi və obyektiv obrazında başa çatan genetik və subyektiv prosesləri dərk etmək cəhdidir.

Husserl pozitivizmin fəlsəfəni yanlış istiqamətə apardığına inanırdı. Sırf elmi aspektlərə diqqət yetirən pozitivizmi Husserl məhdudlaşdırıcı və reduktiv olaraq görürdü. Pozitivizmdən fərqli olaraq, fenomenologiya dərketməmizə səbəb olan subyektiv və genetik prosesləri daha dərindən öyrənmək məqsədi daşıyırdı. Landmana görə əvvəlki fəlsəfə biliyin insanların mərkəzi hissi olması fikrindən uzaqlaşmışdı. Burada bilik daha çox obyektlər üzərindən çıxış edir və insan perspektivini gözardı edirdi. Ancaq fenomenologiya bizə insanın nöqteyi nəzərindən baxmağın vacibliyini göstərdi, dünyanı tərk etməkdə insanların subyektiv baxışlarının önəmini nümayiş etdirdi. "Buna görə də, insan fenomenologiyanın birbaşa mövzusu olmasa da, o, yeni insan fəlsəfəsinin yaranmasına zəmin hazırladı. Fəlsəfi antropologiya müəyyən dərəcədə fenomenologiyanın subyektiv qarşılığıdır" [Landmann, 1982, səh.21].

Klassik epistemologiyaya sərt və tənqidi baxışlar həyat fəlsəfəsində daha radikal xarakter daşıyırdı. Həyat fəlsəfəsinə görə, yalnız həyatdan çıxış etdikdə, onun kontekstindən çıxış etdikdə bilik doğru anlaşıla bilər. Landman yazır ki, "kartezian epistemologiyası insan şüuruna daha çox diqqət yetirməklə həqiqi antropologiya yaratmaq imkanlarını məhdudlaşdırır. Kartezian ənənəsi insan varlığını tam əhatəsini dərk etməyə çalışan antropologiya yarada bilmir" [Landmann, 1982, səh.21-22]. Buna görə də Landmann kartezian ənənəsinə qarşı çıxan filosofları - Nitşeni, Şopenhaueri (həyat fəlsəfəsinin yaradıcıları) artıq antropoloq kimi qəbul edir. "Həyat fəlsəfəsinin antropologiyaya verdiyi digər töhfə isə, Dilteyin insana olan baxışıdır. Dilteyə görə insan tamamlanmış insan deyil, o, təbiət olmaqla yanaşı onun tarixi vardır" [Landmann, 1982, səh.22]. Dilteyə görə insan tarixi varlıqdır. Hər şeydə bir müddətlilik var, tam universal sistem yoxdur. İnsan da tarixi varlıq olduğu üçün o da, öz dönəminin varlığıdır. İnsanlar ətraf mühitlə və keçmişlə davamlı qarşılıqlı əlaqədə olaraq inkişaf etməyə davam edirlər. Dilteyin həyat fəlsəfəsi göstərdi ki, insanı öyrənmək üçün tarixi, psixoloji və mədəni faktorlar da nəzərə alınmalıdır.

Əvvəldə danışdığımız 2 məktəb fəlsəfi antropologiyanın formalaşmasına güclü təsir etmişdirsə də, eksiztensializm fəlsəfəsi də fəlsəfi antropologiya ilə dialoqda olub, bir-birlərinin inkişafına təsir göstərmişdir. Eksiztensializm və fəlsəfi antropologiya iki fərqli, lakin bir-birilə əlaqəli fəlsəfi cərəyanlardır. X X əsr Avropa fəlsəfəsində xüsusi yer tutan hər 2 məktəb insan varlığını əhatə edən əsas suallara cavab axtarırlar. "Groethuysenə görə insanın özü haqqında danışarkən özünü birinci və ya üçüncü şəxs qismində görməsində böyük fərqlilik vardır. Antropologiyada insan, onun hansı xüsusi mövcudluğunun

olmasını və özünün digər varlıqlarla birgə kainatdakı yerini tədqiq edir. İnsan özünü sanki kənardan müşahidə edir (yəni üçüncü şəxsdə görür)” [Landmann, 1974, səh.60].

Antropologiya insanın yerini universumun geniş sxemində araşdırır. “O, insanlara təcrid olunmuş şəkildə diqqət yetirmir, həm də onların ətraf mühitdəki digər varlıqlarla qarşılıqlı əlaqələrini araşdırır, hətta insan kosmos münasibətlərinə də fikir verir” [Landmann, 1974, səh.60]. “Antropologiyanın əksinə olaraq eksiztensializm insanı daxildən müşahidə edir. O, insanın şəxsi mənliyinin axtarışına çıxır. İnsan eksiztensiyasını məhz onun fərdiliyində və konkret olaraq dövründə kəşf edir” [Landmann, 1974, səh.60]. Yəni, ekzistensial fəlsəfədə individualın düşüncələrinin, hisslərinin və təcrübələrinin mürəkkəbliyinə diqqət yetirilir. Eksiztensializm insan mövcudluğunun zamandan asılılığına vurğu edərək, insan həyatında indiki zamanın və onların etdikləri seçimlərin önəmini diqqət altına alır.

Riçard Şaxta görə “fəlsəfi antropoloqlar insanda olabiləcək universal bir şeylə, başqa sözlə, bütün insanların sahib olduqları ortaq bioloji təbiətləri və sosio-mədəni movcudluqları ilə maraqlanırlar” [Schacht, 1974, səh.298]. Fəlsəfi antropologiya ilkin olaraq mədəni və ya ictimai mənşəyindən asılı olmayaraq bütün fərdlər üçün ümumi olan insan təbiətinin elementlərini aşkara çıxarmaqda maraqlıdır. Fəlsəfi antropologiya mədəni, coğrafi və ya tarixi fərqləri aşaraq insan olmağın nə demək olduğunu araşdırır. “Digər tərəfdən, insan həyatının subyektiv ölçüsü və onun fərdi mövcudluğunun özünəxaslığı mövcudluq fəlsəfəsi nümayəndələrinin əsas tədqiqat sahəsidir. Bu filosoflar insan olmağın xüsusiyyətlərini məhz bu trayektoriyalarda göstərməyə meyllidirlər” [Schacht, 1974, səh.299]. Onlar insanın həqiqi təbiətini individualın subyektivliyində, özünəməxsusluğunda görürlər. Eksiztensializmdə insan təcrübələri, seçimləri, azadlığı fərdin şəxsi həyatında müəyyənləşir. Sartrın dediyi kimi mövcudluq mahiyyətdən öncə gəlir. İnsan mahiyyətini mövcud olduqdan sonra öz seçimləri ilə qazanır.

## 5.Maks Şeler fəlsəfi antropologiya məktəbinin yaradıcısı kimi

Manfried Frings yazır ki, “kobud dillə desək XX əsrin ilk onilliklərində müasir Avropa fəlsəfəsinin təməlləri 3 alman filosof tərəfindən qoyulmuşdur. Husserl, Haydeqqer və Maks Şeler” [Frings, 1965, səh.21]. Yenə də Manfried Frings qeyd edir ki, “Şelerin Avropa fəlsəfəsinə əhəmiyyətli təsirinə və məşğul olduğu mövzuların genişlik dairəsinə baxmayaraq o, Husserlə və hətta Haydeqqerə müqayisədə, o dərəcədə diqqət görmədi” [Frings, 1965, səh.21]. Filosofa görə, Maks Şelerin müasir Avropa fəlsəfəsinin inkişafında Husserl və Haydeqqer qədər önəmi olsa da, onun fəlsəfi sistemi lazımi qədər dəyər görmədi. Haydeqqer qeyd edirdi ki, Maks Şeler yaşadığı dövrün fəlsəfəsində ən önəmli filosof idi. Orteqa Qasset isə, onu “fəlsəfə cənnətinin ilk filosofu” adlandırırdı. Həqiqətən də Şelerin fəlsəfi irsi çox zəngin olmuş,

dövründən sonrakı Avropa filosoflarının üzərində əhəmiyyətli təsiri olmuşdur. Ümumiyyətlə, Şeler akademik karyerası boyunca bir çox fəlsəfi mövzularla maraqlanmışdır. Din fəlsəfəsi, etika, biologiyanın əsasları, metafizika, mədəniyyət fəlsəfəsi, buddizm, tarix fəlsəfəsi, metafizikanın sosiologiyası bunlardan bəziləridir. Bizim fikrimizcə, onun düşüncələrinin sərhədi bu dərəcədə geniş olduğu üçün o, fəlsəfi antropologiya kimi bir məktəbi formalaşdıra bildi. Çünki məhz fəlsəfi antropologiyada ilk dəfə olaraq insana bütövlükdə, digər düşüncələrə asılı olmadan baxıldı. Maks Şeler "insanın kosmosdakı yeri" əsərində fəlsəfi antropologiyanın vəzifəsini göstərir. O, qeyd edir ki, "fəlsəfi antropologiyanın vəzifəsi dil, vicdan, alətlər, silahlar, haqq və ədalətsizlik ideyası, dövlət və idarəçilik sənəti, mif, din, elm, tarixilik kimi insana xas nailiyyətlərin və onun yaratdığı əsərlərin onun varlığından necə çıxdığını tam şəkildə göstərməkdir" [Scheler, səh.89]. Riçard Şaxt yazır ki, "insanla əlaqəli bu qədər elmlər var ikən niyə insan anlayışı humanitar elmlərin (insan elmləri) araşdırma sahəsinə buraxılmır. Hətta mədəni antropologiyadan sosial antropologiyaya qədər geniş diapozonda tədqiqat aparan antropologiya sahələr mövcud olduğu halda niyə bir də fəlsəfi antropologiyaya ehtiyac duyulur?" [Schacht, 1990, səh.157]. Şaxt bu suala belə cavab verir ki, "hər bir fənnin özünün metodologiyası var və buna görə də hər bir elm məhdud bir sahədə tədqiqat aparmaqdadır. Bu da insan təbiətini izah etməkdə çətinlik yaradır. Məsələn, insanı ancaq biologiya vasitəsilə anlamağa çalışan alim daha çox təkamül və səbəb nəticə əlaqələrinə diqqət yetirəcək, hər hansı metafizik ifadə işlətmək istəməyəcəkdir. Digər tərəfdən antropologiyanın alt fənləri də mütləq mənada məlumat toplayır və bu məlumatları təhlil edir. Nəzəriyyələşdirmə işində bəzi məhdudiyyətləri nəzərə almalı olacağından, əsasən kiçik qruplara diqqət yetirəcək. Yəqin ki, daha böyük qruplarla işləmək də Sosiologiya sahəsinə uyğun olacaq. Fəlsəfi antropologiya isə çox geniş bir perspektivdən yaradılmış nəzəriyyə irəli sürür, bir çox fənlərin araşdırmalarını sintez edir" [Schacht, 1990, səh.158]. Yurgen Habermasın fəlsəfi antropologiya ilə bağlı düşüncələrini nəzərdən keçirdikdə bu ifadə daha da reallıq qazanır. Habermasa görə "fəlsəfi antropologiya psixologiya, sosiologiya, arxeologiya, linqvistika kimi insan və onun nailiyyətləri ilə bağlı elm sahələrinin kəşflərini assimilyasiya və inteqrasiya edir" [Dennis, 1998, səh.239].

"Şelerin fəlsəfi karyerası onun maraqlarına uyğun olaraq 3 hissəyə bölünür. İlkin dövr 1912-ci ildə bitir və onun yeni Kantçılıq məktəbinə və etikaya olan marağı ilə xarakterizə olunur. 1912-ci ildən 1921-ci ilə qədər Şelerin fenomenologiyaya marağının olduğu, sonra isə katolikliklə məşğul olduğu dövrdür. Sonuncu dövrü 1928-ci ildən Şelerin ölümünə qədər olan dövrdür ki, Şeler bu dövrdə fəlsəfi antropologiya və bilginin sosiologiyası ilə maraqlanır" [Dennis, 1998, səh.235]. Məhz bu dövrdə yazdığı "İnsanın

kosmosdakı yeri" adlı əsəri fəlsəfi antropologiyanın başlanğıcı sayılır. Bu əsər antropologiyanı xüsusi bir tədqiqat sahəsi olaraq ortaya qoyan ilk əsərdir. Şelerin bu əsərinə qədər insan etika və hüquq, din və bilik, sənət və tarixdəki rolu ilə əlaqəli problemlemlərlə birlikdə və dolayı bir araşdırma sahəsi olaraq ələ alınmışdır.

Maks Şeler insan haqqında düşüncələrinin təməllərini 1913-1914-cü illərdə nəşr etdirdiyi etikasında hazırladı. Şeler 2 əsas əsərində - "The Nature of Sympathy and Formalism in Ethics" and "Non Formal Ethics of values" insan hissləri, sevgi və şəxsiyyətin təbiəti kimi mövzulardan yazdı. O, göstərdi ki, eqo, ağıl və şüur insan şəxsiyyətinin xüsusiyyətləridir və insan kontekstindən kənarda heç bir saf mənlik, saf ağıl və saf şüur ola bilməz. Filosofun eqo, ağıl və şüur kimi atributları insanın mövcudluq, varlıq kontekstində izah etməyə çalışması onun antropologiyası baxımından önəmlidir.

Şeler "İnsan və tarix" əsərində fəlsəfi antropologiyanın tərifini bu cür verir: "İnsanın mahiyyətini və əsas quruluşunu, onun təbiət aləmləri (üzvi, bitki və heyvan həyatı), eləcə də hər şeyin mənbəyi ilə əlaqəsini, insanın metafizik mənşəyini, habelə onun fiziki, psixi və mənəvi mənşəyini, dünyadakı mənşəyini, insanı hərəkətə gətirən və hərəkət etdirən qüvvələri, onun bioloji, psixi, mədəni və sosial təkamülünün əsas meyillərini və qanunları, o cümlədən onların əsas imkanları və reallıqlarını tədqiq edən əsas elm sahəsidir" [Scheler, 1958, səh.65].

Maks Şeler "İnsanın kosmosdakı yeri" əsərinin girişində yazır: "Təhsilli bir avropalıya insan sözündən nə anladığı soruşulsa, onun ağlına bir-biri ilə uzlaşmayan 3 ayrı düşüncə gələcəkdir. Bunlardan birincisi, yəhudi-xristian ənənələrinə dayanan düşüncə-insanın Tanrı tərəfindən yaradılması-cənnətdən qovulma. Bu, teolojik antropologiyadır. İkincisi, antik yunan düşüncəsindəki insan anlayışıdır. Üçüncüsü isə, öz təməllərini təbiət elmlərindən götürür" [Scheler, səh. 11]. Şeler yazır ki, "fəlsəfəyə, teologiyaya və təbiət elmlərinə dayanan antropologiya olsa da, insan haqqında düşüncəmiz tam deyil" [Scheler, səh.11]. Şeler insan haqqındakı elmlərin də insan varlığını tam açmadığını, əksinə, düşüncə qarışıqlığı yaratdığını deyir. Şeler yazır: "insan tarixin heç bir dövründə indiki qədər özü üçün problem olmamışdır. Məhz bu səbəbdən çox geniş təməllər üzərində fəlsəfi antropologiya yazmaq istəyirəm" [Scheler, səh.12]. Maks Şelerə görə XX əsr insanların daha çox sürətli sosial dəyişikliklərlə və əxlaqi dilemmalarla üzləşdiyi dövrdür. Bu amillər də insanın özünün dünyadakı yerini dərk etməsini daha da çətinləşdirdi. Şeler fəlsəfi antropologiyanı yazmaqla bu problemləri həll etmək məqsədi daşıyırdı.

Maks Şeler bu əsərində insan varlığının təbiətini aşkara çıxarmaq üçün onun heyvan və bitkilərlə fərqlərinə diqqət yetirir. Şeler yazır: "İnsan kəlməsi

və anlayışında təhlükəli bir ikianlamlılıq mövcuddur. İnsan kəlməsi əvvəlcə insanı morfolojik baxımından onurğalı məməli heyvanlar sinfinə daxil edən xüsusiyyətlərə işarə edir" [Scheler, səh.12]. Filosofa görə, insanın varlıq sahəsinin bu hissəsi psixovital sahəsidir. İnsanın digər varlıq sahəsini "gaist" anlayışı əhatə edir. "Gaist" Maks Şelerin fəlsəfi antropologiyasında insan təbiətini formalaşdıran, onu heyvanlardan fərqləndirən əsas anlayışdır. Şelerin fəlsəfi antropologiyasında canlıların psixovital sahəsi 4 pillədən ibarətdir:

1. Reaksiya, xarici stimullara dərhal, düşünülməmiş cavablarımızdır. Bu reaksiyalar tez-tez avtomatik və qeyri-ixtiyari olur, duyğu, qavrayışlarımızla idarə olunur. Şeler hesab edirdi ki, bu reaksiyalar insan təbiətinin ən əsas və primitiv cəhətidir.
2. İnstinkt müəyyən stimullara qarşı anadangəlmə reaksiyadır. İnsan və heyvanda mövcuddur, xüsusilə də heyvanlarda daha güclü inkişaf etmişdir.
3. Assosiativ yaddaş assosiyalar yaratmaq və keçmiş təcrübələri xatırlamaq qabiliyyətidir. İnsanlarda daha yüksək inkişaf etmişdir.
4. Praktik intellekt (Zəka) problemləri həll etmək və bilikləri tətbiq etmək bacarığıdır. İnsanlarda yüksək inkişaf səviyyəsindədir, amma heyvanlarda da müşahidə edilir.

Bunlardan sadəcə reaksiya bütün canlılarda, digərləri isə heyvan və insanlarda vardır.

Burada əsas diqqət ediləsi nöqtə odur ki, "assosiativ yaddaş ilə zəkanın canlılardakı paylanılması ilə instiktin paylanılması arasında fərq vardır. Canlıların üzərində durduğu pillə yüksəldikcə instinkt azalır. Assosiativ yaddaş və zəkada isə tərsinədir. Canlıların üzərində olduğu pillə yüksəldikcə yaddaş və zəka da artır. Buna görə də ən üst pillədə olan insanda instinkt az, assosiativ yaddaş və zəka çoxdur" [Mengüşoğlu, 2015, səh.30].

Maks Şelerə görə insanda olan zəka heyvanda da müşahidə olunursa, insanı heyvandan fərqləndirən əlamət nədir? Filosofun fəlsəfi antropologiyasında insanın digər varlıq sahəsi olan "Gaist" anlayışı insanı digər canlılardan fərqləndirən əsas anlayışdır. Şelerə görə, insanı insan edən şey onun psixovital tərəfinə aid olan reaksiya, instinkt, assosiativ yaddaş və zəka deyil. Onu insan edən şey məhz bu yeni prinsip gaistdır. Şeler bu anlayışı yunanların "loqos" anlayışına bənzətsə də, onun daha geniş anlamlı bir kəlmə olduğunu söyləyir. "Gaist" həyat adını alan psixovital sahənin qarşı qütbüdür, həyata qarşı olan bir prinsipdir. Gaist nə ruha, nə də bədənə əsaslanır, onlar olmadan da mövcuddur. "Şeler məhz bu gaist teoriyası ilə darvinizmin sərhədləri içərisinə düşmədən antropologiyasının hədəfini gerçəkləşdirə bildi" [Mengüşoğlu, 2015, səh.31].

"Gaist bir əşya və ya bir obyekt deyil, o real da deyil, ancaq aktuallıq və ya dinamik orientasiyadır. Şeler bu dinamik oriyentasiyanı müxtəlif yollarla-

ideya aktı, iradi akt və emosional akt kimi təsvir edir” [Scheler & Frings 1974, səh. 15]. Yəni gaist statik, dəyişməz bir varlıq deyil, o, dünyaya açıq, ideyalar yaradan, mahiyyətləri dərk edən, seçim edən və duyğuları yaşayan davamlı inkişaf edən bir prosesdir.

M.Şeler “İnsanın kosmosdakı yeri” əsərində gaistin bir sıra xarakterik xüsusiyyətlərini qeyd edir. Şelerə görə, Gaistin ilkin xarakteristikası onun dünyaya açıq olmasıdır. Ətraf mühitə tamamilə təslim olmuş heyvandan fərqli olaraq, insan varlığı özünü təbiətdən ayırmağı və onu dünyanın simvoluna çevirməyi bacarır. İnsanlar öz şüurları və mənəvi fəaliyyətlərindən istifadə edərək ətrafla əlaqədə yaşamaqla bərabər, onu özlərindən kənarda şərh edə bilirlər. İnsanda olan Gaist ətraf mühiti şərh etmə qabiliyyətindən əlavə, öz fizioloji və psixoloji vəziyyətlərini də obyekləşdirmək üçün unikal qabiliyyətə malikdir. Heyvanda öz bədənini və hərəkətlərini obyekt halına gətirmək bacarığı yoxdur. Şeler yazır ki, “ insanın dünyanı, öz bədənini və ruhunu obyektləşdirən aktlarının mərkəzi, artıq bu dünyanın bir parçası ola bilməz. İnsanın yeri ancaq ən yüksək varlığın təməli ola bilər. Buna görə də insan özünə və dünyaya üstün olan bir varlıqdır” [Scheler, səh.49]. Şeler gaisti maddi substansiya və ya konkret varlıqdan fərqli olaraq saf aktuallıq kimi təsəvvür edir. Mahiyyətinə görə, gaist statik varlıqdan daha çox dinamik qüvvə kimi mövcud olan maddi məhdudiyyətləri aşır.

Gaistin aktlarından biri də predmetləşdirmə aktıdır. Şeler bu aktı izah etmək üçün bir misal gətirir: “Əgər insanın qolunda ağrı varsa, o, bunun səbəbini öyrənməyə çalışacaq və bu ağrını necə sonlandıra biləcəyini sual verəcək. Bu sualın cavabı isə pozitiv elmlərin işidir” [Scheler, səh.52]. Ancaq Şeler yazır ki, “mən bu ağrını çox qəribə olaraq dünyanın ağrı, pislik və acılarla dolu olduğuna bir nümunə kimi qavraya bilirəm. Bu zaman mənim sual vermə tərzim dəyişəcək. İndi qolumdakı ağrı deyil, ağrının özü nədir sualı ortaya çıxacaq” [Scheler, səh.52]. Şelerin fəlsəfi antropologiyasında gaist yeni ideyalar gətirir və maddi dünyanın hüdudlarını aşır. Predmetləşdirmə aktı insan ruhunun yaradıcı təbiətini təmsil edir.

Şelerə görə, Gaistin daşıyıcısı olan insan həyatdan vazkeçəbilən bir varlıqdır. Şeler yazır ki, “Gerçəklikdən iyrənib qaçdıgı zamanda da “hə” deyən heyvanla müqayisədə, insan “yox” deyib həyatdan əl çəkə bilən, aydın reallıq qarşısında əbədi protestantdır. Varlığı gündəlik qayğılardan başqa bir şey olmayan heyvandan fərqli olaraq, insan əbədi bir faust, yeni şeylərə ehtirasla dolu bir heyvandır” [Scheler, səh.56].

## 6.Nəticə

Nəticə etibarilə, fəlsəfə tarixi boyunca insanın mahiyyəti bir çox filosofun fəlsəfəsinin mərkəzi mövzusu olmuşdur. Müxtəlif dövrlərdə filosoflar insan nədir sualına fərqli cavablar vermişlər. İnsan fəlsəfəsi kimi də adlandırılan fəlsəfi antropologiya məhz bu suala cavab axtarır. Lakin Fəlsəfi

Antropologiyanı fəlsəfi tarixinin daha geniş kontekstində bir hərəkat kimi təsəvvür etmək və Maks Şeler tərəfindən yaradılmış bir məktəb kimi qəbul etmək arasındakı ikilik bu sahənin çoxçalarlı xarakterini əks etdirir. Fəlsəfi antropologiyanı tədqiq edən tədqiqatçılar arasında da bu məsələ barəsində fikir ayrılığını da qeyd edərək, biz ümumi mahiyyəti aşkara çıxarmaq üçün mövzuya kompleks baxışı məqbul gördük. Yəni həm fəlsəfə tarixində insanla bağlı konsepsiyalara, həm də Maks Şelerin fəlsəfi antropologiyasına nəzər saldıq. Həmçinin fəlsəfi antropologiyanın mahiyyətini daha dərindən anlamaq üçün onun digər bəşəri elmlər olan sosiologiya, antropologiya, psixologiya arasındakı fərqlərinə baxdıq və eksiztensializm, fenomenologiya, həyat fəlsəfəsi kimi fəlsəfi məktəblərlə dialoquna diqqət yetirdik.

## ƏDƏBİYYAT

1. Landmann, M. (1982). *Fundamental Antropology* (ed. & trans. by David J.Parent). Center for Advanced Researfh in Phenomenolog & University Press of America, Washington, D.C, 191 s.
2. Landmann, M. (1974). *Philosophical Antropology*. (trans. by David J.Parent). Philadelphia, Westminster Press, 247 s
3. Fischer, Joachim (2009). Exploring the Core Identity of Philosophical Anthropology through the Works of Max Scheler, Helmuth Plessner, and Arnold Gehlen. Iris. *European Journal of Philosophy and Public Debate 1* (1):153-170.
4. Mengüşoğlu, T. (2015). *İnsan Felsefesi.* Doğu Batı yayınları, 536 s.
5. Mengüşoğlu, T. (1949). *Kant ve Schelerde İnsan Problemi: Felsefi antropoloji için tenkidi bir hazırlık.* Pülhan matbaası, İstanbul, 229 s.
6. Mehdiyev, R. (2010). *Fəlsəfə.* Dərs vəsaiti. Bakı, Şərq-Qərb, 360 s.
7. Trajtelova, J. (2016). *Philosophical Antropology :Selected Chapters.* Peter Lang AG, 102 s. https://doi.org/10.3726/978-3-653-06648-7
8. Baltazar, Macaíba de Sousa & Gleidimar, Alves de Oliveira. (2020). Antropology and Philosopophy: the theoretical concepts feuerbachians. *Journal of Liberal Arts and Humamities, 1*(3), 76-81 s.
9. Nguyen Minh Tri. (2022). Ludwig Feuerbach's Philosophy The Study of Human. *Journal of Positive School Psychology, 6*(5), 583-588 s.
10. Akdemir, F. (2003). Feuerbach'ın Antropolojik Ateizmi Ve Teistik Açıdan Değerlendirilmesi. *Ondokuz Mayıs Üniversitesi İlahiyat Fakültesi Dergisi 14/14-15* (Haziran 2003), 341-357. https://doi.org/10.17120/omuifd.32803.

**11.** https://www.encyclopedia.com/humanities/encyclopedias-almanacs-transcripts-and-maps/philosophical-anthropology
**12.** Dennis M. Weiss (1998). Max Scheler and Philosophical antropology. *Philosophy Today, 42*(3). Philosophy Documentation Center, 235-249 s. https://doi.org/10.5840/philtoday199842325
**13.** Schacht, R. (1990). Philosophical anthropology: What, why and how. *Philosophy and Phenomenological Research 50*:155-176.
**14.** Schacht, R. (1974). On “Existentialism”, Existenz-Philosophy and Philosophical Anthropology. *American Philosophical Quarterly, 11*(4), 291–305. http://www.jstor.org/stable/20009544
**15.** Scheler, M. *İnsanın Kosmosdakı Yeri*. (Çeviri Mengüşoğlu, T.). Eslek Matbaası, 96 s.
**16.** Khan, N. (2021, March 25). Kant and Anthropology. *Oxford Research Encyclopedia of Anthropology*. 33 s https://doi.org/10.1093/acrefore/9780190854584.013.311
**17.** Mengüşoğlu, T. (1945). Fenomenoloji Felsefesi. *Felsefe Arkivi 1, 1*(1), 47-74 s.
**18.** Eren I. (2008). Phenomology: Edmund Husserl, Max Scheler. Uludağ Üniversitesi Fen-Edebiyyat Fakültesi, *Felsefe Dergisi 11*, 103-120 s.
**19.** Scheler, M. & Frings, M. S. (eds.) (1974). *Max Scheler (1874-1928): centennial essays*. The Hague: M. Nijhoff.
**20.** Frings, M. S. (1965). *Max Scheler: a concise introduction into the world of a great thinker*. Pittsburgh: Duquesne University Press, 223 p.
**21.** Schoot, H. J. M. (2020). Thomas Aquinas on Human Beings as Image of God. *European Journal for the Study of Thomas Aquinas, 38*(1) (Jun 08, 2020) 33-46 s https://doi.org/10.2478/ejsta-2020-0003 https://intapi.sciendo.com/pdf/10.2478/ejsta-2020-0003
**22.** Nerczuk, Zbigniew (2016). Nature, Man and Logos: An Outline of the Antropology of the Sophists. *Kultura i Edukacja, 2*(112). 43-52 s. https://philarchive.org/archive/NERNMA
**23.** Cheung, Ching-yuen (2000). *Person and Man in the Philosophical Antropology of Max Scheler*. Chinese University of Hong Kong,126 s
**24.** Olafson, F. A. (2019, June 4). *philosophical anthropology*. *Encyclopedia Britannica*. https://www.britannica.com/topic/philosophical-anthropology
**25.** Scheler, M (1958). Philosopical Perspectives. Translated from German by Oscar Haac. Beacon Press, Beacon Hill, Boston, 144 s

# Сущность философской антропологии: роль Макса Шелера в формировании философской антропологии как школы

**Асим Ашуров***
**Заур Рашидов****

**Абстракт.** В целом, «философская антропология» является особой и чрезвычайно обширной областью в истории мировой науки и современной философской мысли. Так же, философская антропология остаётся важной областью Западной философской и социальной мысли. Философская антропология, берущая свои исторические корни из древнегреческой философии, существовала в более поздние периоды истории философии. Она приобрела новое значение в немецкой классической философии и с начала XX века стала особым направлением в истории мировой философии. В общих чертах философская антропология является новой философией человека. Западная Европа XX века, главным образом немецкая философия, представляет собой философское учение, включающее в себя результаты различных систем знаний о природе и существовании человека. В более широком смысле философская антропология это, научная система, состоящая из совокупности философских идей, концепций и учений, ориентированных на человека, направленных на его изучение. Философская антропология, возникшая в конце 1920-х годов в результате философской деятельности Макса Шелера и считавшаяся новым направлением в истории мысли, развивалась как своеобразный раздел неклассической философии.

**Ключевые слова:** Философская антропология, человек, животное, существо, Макс Шелер, дух, Фейербах

* Магистрант Бакинского Государственного Университета; Баку, Азербайджан (ответственный автор)
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459
** Доктор философии по философии,
НАНА, Институт Философии и Социологии; Баку, Азербайджан
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856
**Цитировать статью:** Ашуров, А., & Рашидов, З. [2024]. Сущность философской антропологии: роль Макса Шелера в формировании философской антропологии как школы. *Журнал «Metafizika», 7(1),* с.91-111.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.91-111

**История статьи:**
*Статья поступила в редакцию: 18.11.2023*
*Отправлена на доработку: 11.12.2023*
*Принята для печати: 29.01.2024*

# The essence of philosophical anthropology: Max Scheler's role in the formation of philosophical anthropology as a school

**Asim Ashurov**[*]
**Zaur Rashidov**[**]

**Abstract.** "Philosophical anthropology" is a special and extremely comprehensive branch of the history of world science and modern philosophical thought in general. Philosophical anthropology is an important branch of Western philosophical and social thought. Philosophical anthropology, which took its historical roots from ancient Greek philosophy, existed in the later periods of the history of philosophy, acquired a new meaning in German classical philosophy, and became a special trend in the history of philosophy starting from the beginning of the 20th century, is also, in general, a new philosophy of man. It is a philosophical teaching that includes the results of various systems of knowledge about the nature and existence of man in the 20th century Western Europe, mainly in German-language philosophy. In a broader sense, philosophical anthropology is a scientific system consisting of a set of philosophical ideas, concepts, and teachings that focus on man and aim to study him. Philosophical anthropology, which emerged in the late 1920s as a result of Max Scheler's philosophical teaching and was considered a new direction in the history of thought, developed as a branch of non-classical philosophy.

**Keywords:** Philosophical antropology, human, animal, being, Max Scheler, spirit, Feuerbach

## REFERENCES

1. Landmann, M. (1982). *Fundamental Antropology* (ed. & trans. by David J.Parent). Center for Advanced Researfh in Phenomenolog & University Press of America, Washington, D.C, 191 p. (in English)
2. Landmann, M. (1974). *Philosophical Antropology*. (trans. by David J.Parent). Philadelphia, Westminster Press, 247 p. (in English)

---

[*] Master's student in Baku State University; Baku, Azerbaijan (corresponding author)
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459
[**] Doctor of Philosophy (Ph.D),
ANAS, Institute of Philosophy and Sociology; Baku, Azerbaijan
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856
**To cite this article:** Ashurov, A., & Rashidov, Z. [2024]. The Essence of Philosophical Anthropology: Max Scheler's Role in the Formation of Philosophical Anthropology as a School. *“Metafizika” journal, 7(1),* pp.91-111.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.91-111

**Article history:**
*Received: 18.11.2023*
*Accepted: 29.01.2024*

**3.** Fischer, Joachim (2009). Exploring the Core Identity of Philosophical Anthropology through the Works of Max Scheler, Helmuth Plessner, and Arnold Gehlen. Iris. *European Journal of Philosophy and Public Debate 1* (1):153-170. (in English)

**4.** Mengüşoğlu, T. (2015). *Human Philosophy*. East West publications, 536 p. (in Turkish)

**5.** Mengüşoğlu, T. (1949). *The Human Problem in Kant and Scheler: A critical preparation for philosophical anthropology*. Pülhan printing house, Istanbul, 229 p. (in Turkish)

**6.** Mehdiyev, R. (2010). *Philosophy*. Textbook. Baku, East-West, 360 p. (in Azerbaijani)

**7.** Trajtelova, J. (2016). *Philosophical Antropology: Selected Chapters*. Peter Lang AG, 102 p. https://doi.org/10.3726/978-3-653-06648-7 (in English)

**8.** Baltazar Macaíba de Sousa & Gleidimar Alves de Oliveira. (2020). Antropology and Philosopophy: the theoretical concepts feuerbachians. *Journal of Liberal Arts and Humamities, 1*(3), 76-81. (in English)

**9.** Nguyen Minh Tri. (2022). Ludwig Feuerbach's Philosophy The Study of Human. *Journal of Positive School Psychology, 6*(5), 583-588. (in English)

**10.** Akdemir, F. (2003). Feuerbach's Anthropological Atheism and its Evaluation from a Theistic Perspective. *Ondokuz Mayıs University Faculty of Theology Journal 14/14-15* (June 2003), 341-357. https://doi.org/10.17120/omuifd.32803.

**11.** https://www.encyclopedia.com/humanities/encyclopedias-almanacs-transcripts-and-maps/philosophical-anthropology

**12.** Dennis M. Weiss (1998). Max Scheler and Philosophical antropology. *Philosophy Today, 42*(3). Philosophy Documentation Center, 235-249. https://doi.org/10.5840/philtoday199842325 (in English)

**13.** Schacht, R. (1990). Philosophical anthropology: What, why and how. *Philosophy and Phenomenological Research 50*:155-176. (in English)

**14.** Schacht, R. (1974). On "Existentialism", Existenz-Philosophy and Philosophical Anthropology. *American Philosophical Quarterly, 11*(4), 291–305. http://www.jstor.org/stable/20009544 (in English)

**15.** Scheler, M. *Man's Place in the Cosmos*. (Translated by Mengüşoğlu, T.). Eslek Printing House, 96 p. (in Turkish)

**16.** Khan, N. (2021, March 25). Kant and Anthropology. *Oxford Research Encyclopedia of Anthropology*. 33 p. https://doi.org/10.1093/acrefore/9780190854584.013.311 (in English)

**17.** Mengüşoğlu, T. (1945). Philosophy of Phenomenology. Philosophy Archive 1, 1(1), 47-74 p. (in Turkish)

**18.** Eren I. (2008). Phenomology: Edmund Husserl, Max Scheler. Uludağ University Faculty of Arts and Sciences, *Journal of Philosophy 11*, 103-120 p. (in Turkish)

**19.** Scheler, M. & Frings, M. S. (eds.) (1974). *Max Scheler (1874-1928): centennial essays*. The Hague: M. Nijhoff. (in English)

**20.** Frings, M. S. (1965). *Max Scheler: a concise introduction into the world of a great thinker*. Pittsburgh: Duquesne University Press, 223 p. (in English)

**21.** Schoot, H. J. M. (2020). Thomas Aquinas on Human Beings as Image of God. *European Journal for the Study of Thomas Aquinas, 38*(1) (Jun 08, 2020) 33-46. https://doi.org/10.2478/ejsta-2020-0003 https://intapi.sciendo.com/pdf/10.2478/ejsta-2020-0003 (in English)

**22.** Nerczuk, Zbigniew (2016). Nature, Man and Logos: An Outline of the Antropology of the Sophists. *Kultura i Edukacja, 2*(112). 43-52 p. https://philarchive.org/archive/NERNMA (in English)

**23.** Cheung, Ching-yuen (2000). *Person and Man in the Philosophical Antropology of Max Scheler*. Chinese University of Hong Kong, 126 p (in English)

**24.** Olafson, F. A. (2019, June 4). *philosophical anthropology*. *Encyclopedia Britannica*. https://www.britannica.com/topic/philosophical-anthropology (in English)

**25.** Scheler, M (1958). Philosophical Perspectives. Translated from German by Oscar Haac. Beacon Press, Beacon Hill, Boston, 144 p. ( in English)